# Milli oyanışın ideoloqu - Əbdürrauf Fitrət




**Əsrlər boyu xalqların birgə yaşayışında, sülh və əmin-amanlıq içərisində olmasında, dostluq və qardaşlıq münasibətlərinin inkişafında ədəbi əlaqələrin rolu böyük olub. Xüsusilə son dövrlərdə Türk dünyasının birliyi məsələsində həm ideya, həm də ədəbiyyat və ədəbi simalar böyük ideoloji, mədəni körpü rolu oynamış, xalqların bir-birinə yaxınlaşması, qarşılıqlı münasibətlərinin yaranmasında əhəmiyyətli yer tutur. Bu baxımdan Azərbaycan-özbək ədəbi əlaqələrinin inkişafı qədim və zəngin gələnəklərə dayanır.**

Azərbaycan və özbək xalqları arasındakı əlaqələr təkcə siyasi və tarixi çərçivə ilə məhdudlaşmamış, bu bağların ən dərin və davamlı yollardan biri ədəbiyyat sahəsində formalaşmışdır. Ortaq türk kökü, oxşar dünyagörüşü və eyni mədəni yaddaş bu iki xalqın ədəbiyyatını əsrlər boyu bir-birinə yaxımlaşdırıb. Bu ədəbi yaxınlıq hələ orta ərslərdən başlayır. Nizami Gəncəvinin humanist ideyaları, Füzulinin sözə verdiyi dəyər bütövlükdə türk-islam dünyasının ədəbi düşüncəsini formalaşdırıb. Eyni şəkildə Əlişir Nəvai özbək ədəbiyyatını zirvəyə daşımaqla yanaşı, türkcənin ədəbi dil kimi qüdrətini sübut edib. Nəvainin yaradıcılığı Azərbaycan şairləri üçün də bir məktəb rolunu oynayıb. Bu əlaqələr sadəcə təsirlənmə deyil, həm də qarşılıqlı zənginləşmə prosesidir. Bu iki türk xalqının şairləri eyni mövzular ətrafında düşünmüş, oxşar poetik dillə ifadə etmişlər. Müstəqillik qazanan hər iki ölkə arasında ədəbi əlaqələr yenidən güclənib. Ortaq lahiyələr, qarşılıqlı kitab nəşrləri, konfranslar və ədəbi tədbirlər bu sahədə yeni imkanlar yaradır. Ədəbiyyat bir daha sübut edir ki, siyasi sərhədlər dəyişə bilər, amma sözün qurduğu körpülər qalıcıdır. Bu cəhətdən Azərbaycan-özbək ədəbi əlaqələri təkcə keçmişin mirası deyil, həm də gələcəyə yönəlmiş əsas istiqamətdir. Bu əlaqələri qorumaq və inkişaf etdirmək, ortaq mədəni kimliyimizi yaşatmaq deməkdir. Çünki bir kökdən boylanan sözlər, ayrı-ayrı dillərdə səslənsə də, eyni ruhu daşıyır. Filologiya elmləri doktoru Mehman Həsənovun "Əbdürrauf Fitrət və özbək cədidçilik hərəkatı" (elmi məsləhətçi: akademik İsa Həbibbəyli; elmi redaktor və ön sözün müəllifi: filologiya elmlər doktoru, professor Həmidulla Baltabayev; rəyçilər: filologiya elmləri doktoru Almaz Ülvi Binnətova, filologiya elmlər doktoru Yaşar Qasımbəyli; məsul redaktorlar: filologiya üzrə fəlsəfə doktoru, dosent Töhfə Talıbova və Maya Həsənli; Bakı, "Elm və təhsil", 2025, 132 s.) adlı kitabı bu sahədə atılmış önəmli addımlardandır. Sənətinin müasirliyi, onun öz əsərlərində qoyduğu problemlərin aktuallığı illər keçdikcə daha artıq hiss olunur. Böyük ədibin yaradıcılığına ədəbi-elmi fikrimizin daim artan marağı bunu bir daha sübut edir. Bu monoqrafiya da məhz bu dərin marağın təzahürüdür. Əsər bu böyük şəxsiyyətin həyatını, yaradıcılığını və ideya dünyasını bütöv şəkildə təqdim edən fundamental tədqiqat kimi diqqəti cəlb edir.

Təqdir olunası cəhətlərdən biri də budur ki, monoqrafiya müəllifin magistr dissertasiyası olub. Əlbəttə, müəllifin tədqiqat üzərində yenidən çalışması, yeni faktlar əlavə etməsini də nəzərə almaq lazımdır. Monoqrafiyada cədidizmin XX əsrin əvvəllərində özbək bədii düşüncəsində yeri və rolu, sənətkarların yaratdığı bədii nümunələrdə cədidizmdən irəli gələn milli kimlik, istiqlal, elm və təhsilin inkişafı, cədidçiliyin görkəmli nümayəndəsi Əbdürrauf Fitrətin yaradıcılığı kontekstində ələ alınır.

XIX əsrin sonu-XX əsrin əvvəllərində Türküstan coğrafiyasında baş verən ictimai-siyasi və mədəni dəyişikliklər milli oyanış hərəkatlarının formalaşmasına zəmin yaradıb. Bu prosesin ən mühüm təzahürlərindən biri cədidçilik hərəkatı olub. Özbək cədidçiliyinin aparıcı simalarından biri də mütəfəkkir, yazıçı, dramaturq, alim və siyasi xadim Əbdürrauf Fitrət öz ideyaları, əsərləri və maarifçilik fəaliyyəti ilə özbək milli düşüncəsinin formalaşmasında müstəsna rol oynayıb.

Tədqiqatçı "cədidçilik nədir?" sualına cavab axtararq onun XIX əsrin sonlarında müsəlman xalqları arasında yaranmış maarifçi islahat hərəkatı ilə müqayisə edir. Hərəkatın əsas məqsədi köhnə mədrəsə təhsil sistemini yeniləşdirmək, dünyəvi elmləri tədrisə cəlb etmək, milli şüuru oyatmaq və cəmiyyəti müasir inkişaf yoluna çıxartmaq idi. Türküstanda cədidçilik yalnız təhsil sahəsi ilə məhdudlaşmayaraq ədəbiyyat, teatr, mətbuat və ictimai fikir sahələrini də əhatə edib.

Əbdürrauf Fitrət ilk təhsilini ənənəvi dini məktəbdə almasına baxmayaraq, dünyəvi elmlərə böyük maraq göstərir. O, İstanbula gedərək burada dövrün qabaqcıl fikir adamları ilə tanış olub, Osmanlı və Qərb düşüncə sistemindən ciddi şəkildə təsirlənir. Bu təsirlər Fitrətin dünyagörüşünün formalaşmasında həlledici rol oynayır. Fitrət üçün əsas problem müsəlman cəmiyyətlərinin geriliyi və bu geriliyin səbəbləri idi. O, hesab edirdi ki, xalqın tərəqqisi üçün ilk növbədə maariflənmə, milli özünüdərk və azad düşüncə lazımdır. Bu baxımdan Ə.Fitrət cədidçiliyin ideoloji idеrlərindən biri kimi çıxış edir. Onun bədii və elmi yaradıcılığı cədidçi ideyaların təbliği baxımından xüsusi önəm daşıyır. O, yalnız ədəbiyyatçı deyil, eyni zamanda aktiv ictimai-siyasi xadim kimi hərəkət edir. Özbək dilinin inkişafı, milli mətbuatın təşkili və milli mədəniyyətin qorunması uğurunda mübarizə aparır. Onun üçün dil milli varlığın əsas dayağı idi və o, ana dilində yazmağa milli müqavimət forması kimi qiymətləndirirdi. Sovet hakimiyyətinin ilk illərində Fitrət müəyyən vəzifələrdə çalışsa da, milli mövqeyinə görə sonradan təqiblərə məruz qalıb və 1938-ci ildə repressiya qurbanı olub.

Əbdürrauf Fitrət özbək cədidçiliyinin ideoloji və bədii əsaslarını formalaşdıran ən mühüm şəxsiyyətlərdən biri kimi maarifçilik, milli oyanış və mədəni islahat ideyaların sintezini həyata keçirir. Onun irsi bu gün də öz aktuallığını qoruyur və Türküstan xalqların modernləşmə tarixini anlamaq baxımından mühüm mənbə hesab olunur. Beləliklə, Əbdürrauf Fitrət yalnız öz dövrünün deyil, ümumtürk mədəni düşüncəsinin də parlaq simalarından biri kimi tarixdə qalmaqdadır.

Monoqrafiyada Ə.Fitrətin həyatı haqqında qısa, lakin dolğun məlumat öz əksini tapıb. "Əbdürrauf Fitrətin ədəbi-nəzəri irsi və cədidçilik" adlanan ilk fəsildə dövrün ümumi mənzərəsi, cədidçilik hərəkatının meydana çıxmasına səbəb olan proseslər təhlilə cəlb edilir. Münəvvər Qani, Abdulla Avlani, Əbdülhəmid Süleyman Çolpan, Mahmudxoca Behbudi, Abdulla Qədiri kimi cədidçiliyin görkəmli simalarının göstərdikləri xidmətlər işıqlandırılıb. "Əbdürraufun ədəbi-nəzəri irsi və cədidçilik" bölümündə isə Fitrətin nəzəri baxışlarını ön plana çıxır. Burada müəllif onun ədəbiyyata, sənətə və cəmiyyətə münasibətini cədidçilik ideologiyası kontekstində təhlil edir. Fitrət üçün ədəbiyyat xalqın taleyinə biganə qalmayan, milli tərəqqiyə xidmət edən ideoloji silah idi. Bu yanaşma cədidçiliyin mahiyyətini də aydınlaşdırır.

Kitabın "Əbdürrauf Fitrət və onun cədidçilik müasirləri" adlı bölməsi cədidçilik hərəkatının ümumi xarakterini üzə çıxarır. Müəllif Ə.Fitrəti dövrünün digər maarifçi ziyalıları ilə müqayisəli şəkildə təqdim edir, onların ortaq ideallarını və mövqelərini göstərir.

"Publisistik fikir və cədidçilik" bölməsində Ə.Fitrətin publisistik sahədəki fəaliyyətini təhlil obyektinə çevirərək, məqalə və çıxışlarında cəmiyyətə ünvanlanan kəskin çağırışları, milli özünüdərk və maarifçilik ideyalarını ön plana çəkir. O, xalqı cəhalətə qarşı mübarizəyə, maariflənməyə və milli şüurun oyanışına səsləyirdi. Bu bölmədə publisistikanın cədidçilikdə oynadığı rol aydın şəkildə əsaslandırılır. Cədidçilər anlayırdılar ki, savadsız cəmiyyət azad ola bilməz. Ona görə də məktəb, mətbuat və milli dil onların əsas mübarizə meydanı idi. Kitabın "Publisistik fikir və cədidçilik" adlı bölməsində cədidçi aydınların publisistik sahədəki fəaliyyəti öz əksini tapır. Onların nəşr etdikləri "Tərəqqi", "Xurşid", "Şöhrət" adlı qəzet və bu mətbu orqanlarda çap olunmuş məqalələri ilə xalqın taleyüklü məsələlərinə diqqət çəkiblər. "Müsəlmanlar, qafil olmayın" məqaləsində məktəblərin tərəqqisi məsələlərinə toxunub. Ədib ədəbi-elmi yaradıcılığının bütün mərhələlərində bu mövzuya müraciət edib və onunla əlaqədar suallara cavab verməyə çalışıb.

Əsərin maraqlı hissələrindən biri "Əbdürrauf Fitrətin poeziya, dramaturgiya və nəsr yaradıcılığında cədidçilik" bölməsində cədidçilik ideyalarının necə bədii formaya salındığı araşdırılır. Poeziyada milli duyğular, dramaturgiyada sosial tənqid, nəsrdə isə maarifçi ideyalar əsas xətt kimi təqdim olunur. Ə.Fitrət dramaturgiyanı təsadüfən seçməyib. Teatr geniş kütlələrə təsir etmək gücünə malik idi və yazıçı bu imkanlardan milli şüurun formalaşdırılması naminə məharətlə istifadə edirdi. Əbdürrauf Fitrətin dramaturgiyası cədidçi ideyaların ən təsirli tribunasına çevrilib. O, tarixi mövzulara müraciət etsə də, əslində öz dövrünü, öz cəmiyyətini mühakimə edirdi. Onun dramlarında səhnəyə çıxan qəhrəmanlar yalnız tarixi fiqurlar deyil, milli şüurun daşıyıcılarıdır.

İstibdadla azadlıq, cəhalətlə maarif, köhnə ilə yeni arasındakı mübarizə Fitrət dramaturgiyasının əsas konfliktidir. Ə.Fitrətin nəsr yaradıcılığı cədidçiliyin ideoloji əsaslarını daha açıq və birbaşa ifadə edir. Dil, məktəb, mədəniyyət, tarix və dövlətçilik düşüncəsi bir-birindən ayrı deyil. O inanırdı ki, milli oyanış yalnız silahla deyil, şüurla qazanılır. Onun poeziyası oyadır, dramaturgiyası düşündürür, nəsri isə istiqamət göstərir. Fitrət üçün ədəbiyyat milli idealların daşıyıcısı, milli yaddaşın qoruyucusu idi. Bu baxımdan onun yaradıcılığı bu gün də aktualdır, çünki milli suallar hələ də cavab axtarır.

"Poetik axtarışlar və milli ideyalar" adlı bölmədə müəllif Ə.Fitrətin estetik yeniliklərini və milli ideya axtarışlarını diqqət mərkəzinə çəkir. Burada onun yeni poetik formalar vasitəsilə milli düşüncəni ifadə etmək cəhdləri elmi üslubda şərh olunur. Müəllif haqlı olaraq burada vətənsevər bir şəxsiyyət kimi Ə.Fitrətin digər janrlarda olduğu kimi, şeirlərinin əsas mövzusunun vətən, türk yurdu olduğuna diqqət çəkərək yazır: "Çap olunan ilk şeirlər kitabından başlayaraq bütün yaradıcılığı boyu Fitrət Çar Rusiyasının və daha sonra sovet imperiyasının türk xalqlarına qarşı apardığı assimilyasiya qarşı mübarizə aparıb".

Kitabın "Dramatik növdə milli tərəqqi problemlərinin əksi" bölməsi Fitrətin dramaturgiyasını milli tərəqqi ideyalarının güzgüsü kimi təqdim edir. Müəllif Fitrətin dramlarında cəhalət, despotizm və ictimai laqeydliyin amansız tənqid edildiyini, buna qarşılıq azadlıq, maarif və milli məsuliyyət ideyalarının irəli sürüldüyünü əsaslandırır.

Monoqrafiyanın son bölümü "Epik növdə cədidçiliyin ifadəsi" adlanır. Müəllif burada "Bədil", "Münəzara", "Hind səyyahının qeydləri" tədqiqata cəlb edib, cəmiyyətin sosial problemləri, fanatizm, savadsızlıq və milli gerilik kimi məsələləri təhlil edib. Dramaturji əsərlərində Fitrət milli tarixi mövzulara müraciət edərək xalqın tarixi yaddaşını oyatmağa çalışıb. Bu, cədidçiliyin əsas prinsiplərindən biri olan milli kimlik şüurunun formalaşması ilə birbaşa bağlıdır.

Filologiya elmləri doktoru Mehman Həsənlinin "Əbdürrauf Fitrət və özbək cədidçiliyi" kitabı yalnız bir tədqiqat əsəri deyil, eyni zamanda, milli yaddaşın bərpasına xidmət edən ideoloji mənbədir. Bu kitab cədidçilik hərəkatının mahiyyətini, Əbdürrauf Fitrətin çoxşaxəli fəaliyyətini və milli tərəqqi ideyalarının necə formalaşdığını dərindən anlamaq istəyən hər kəs üçün əhəmiyyətli və zəruri olmaqla yanaşı, müqayisəli ədəbiyyatşünaslıq sahəsində dəyərli mənbələrdən biridir

**Leyla Pirimova, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi**